# Folklor xalq həyatının əks-sədasıdır

**(əvvəli 7 mart tarixli sayımızda)**

Qoyunçuluqla bağlı yaranmış nəğmələrdə - sayaçı sözlərdə kəndlinin həyatında qoyunçuluğun nə qədər böyük əhəmiyyət daşıdığı vəsf edilir. Qoyuna müraciətlə oxunan sayaçı sözlərdə kəndlinin güzəranını yaxşılaşdırdığına görə, bu heyvana sevgi və diqqət özünü göstərir. Özəlliklə nazını çəkdiyi, hətta aclıq gələndə başına dolandığı heyvandan zəhmət adamının xeyir-bərəkət, dolanışıq təminatı gözləntisi və diləyi əks olunur. Məsələn:

*Saya, saya, sayadan,*
*Damazlığı mayadan.*
*Bu saya kimdən qalıb,*
*Adəm atadan qalıb.*
*Adəm ata gələndə,*
*Musa çoban olanda.*

*Nənəm, qoyunun ağı,*
*Gedib dolanar dağı.*
*Otlar qara qiyası,*
*İçər sərin bulağı,*
*Acı olar dırnağı.*
*Dadlı olar qaymağı,*
*Qarılar tutar yağı,*
*Gəlin yeyər quymağı.*
*İllaki qayqanağı,*
*Çobana vurar dağı,*
*Qızlara cehiz ağı,*
*Çobana çarıq bağı,*
*Uşağa bələk bağı...*

Hətta sayaçı sözlərin içərisində heyvanların deyişməsindən ibarət mükəmməl poetik parçalar da vardır. Bu deyişmə nümunələrdə qoyun, keçi, öküz, inək, camış, dəvə, at və eşşəyin obrazları o qədər canlı və təbii yaradılıb ki, onların hansı işləri gördükləri oxuyan andanca bəlli olur:

*Qoyun deyər, mən heç*
*otdan doymaram,*
*Payız oldu, çövrün-çöpün*
*qoymaram.*
*Hər evi mən yunum ilə*
*bəzərəm,*
*Ağır-ağır xalılarım var*
*mənim,*
*Allı-güllü xalçalarım var*
*mənim.*

Folklor xəzinəmizi zənginləşdirən digər janrlar isə nağıllar, dastanlar, əfsanə və rəvayətlər, bayatı, layla, oxşama, dərin hikmətə söykənən atalar sözləridir. Bu inci xəzinəsi daha çox kollektiv yaradıcılıq nümunələri əsasında formalaşdığı üçün xalqın arzu və istəklərini, çeşidli olaylara baxış açısını, sevinc və kədər duyğularını, tərbiyəvi-didaktiv görüşlərini, dünyabaxışını, mifoloji görüşlərini, psixologiyasını, duyğu və düşüncələrini, bütövlükdə yaşamını özündə əks etdirir. Bütün bunlar lirik, epik və dramatik növlərdə yaranmış folklor örnəklərində orijinal şəkildə öz əksini tapır. Beləliklə də bu ədəbi növlərin hər birinə məxsus janrlar yaranmağa başlayıb və zaman keçdikcə həmin janrlar daha da zənginləşib. Ancaq həm Güney, həm də Quzey Azərbaycanda lirik və epik folklor nümunələri daha geniş yayılıb, hətta qonşu xalqların da folkloruna və klassik ədəbiyyatına təsir edib.

Ancaq dildə-ağızda dolaşaraq yazılı mənbələrə köçən və günümüzədək gəlib çatan örnəklərindən aydın görünür ki, lirik janrın bayatı qolunda xalqın yaşamının və gün-güzəranının müxtəlif yönləri yüksək bədii-emosional dillə daha təsirli, yanğılı əks olunub:

Bayatılara evsiz-eşiksiz qalanların, yuvası dağılanların dərdi, yurdsuzların yurd nisgili, xanimanları yıxılan, Türkmənçay müqaviləsindən sonra İranla Rusiya arasında Araz çayı boyunca bölünməsi, sərhədlərin bağlanması üzündən ayrılığa tuş gələn, dərddən canı sanki od tutub yanan, tüstüsü təpəsindən çıxan soydaşlarımızın yaralı ürəklərinin naləsi də hopub:

*Bu gün getdim suya mən,*
*Sudan aldım dua mən,*
*Qaranquşca olmadım*
*Barı quram yuva mən.*

*Başımda fənar yandı,*
*Od düşdü bu tay yandı,*
*Canım dərd-qəm əlində*
*Od tuta-tuta yandı.*

***(davamı növbəti saylarımızda)***

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**

Respublika .- 2023.- 8 mart.- S.10.